## Azərbaycanın xarici siyasətinin uğurları

# Üç dövlət arasındakı əlaqələr cari maraqlara yox, əbədi qardaşlığa söykənir

### Türkiyə-Azərbaycan-Özbəkistan üçtərəfli görüşündə önəmli məsələlər müzakirə olunub

Xəbər verildiyi kimi, Türkiyənin paytaxtı Ankarada Türkiyənin Ticarət, Azərbaycanın İqtisadiyyat və Özbəkistanın İnvestisiya, Sənaye və Ticarət nazirliklərinin dəstəyi, Türkiyə Palatalar və Birjalar Birliyi (TOBB), Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyi (AZPROMO) və Özbəkistanın İnvestisiyaların Təşviqi Agentliyinin birgə təşkilatçılığı ilə Türkiyə-Azərbaycan-Özbəkistan biznes-forumu keçirilib.




200-dək sahibkarın iştirak etdiyi görüşdə tikinti, tütünçülük, qida sənayesi, əczaçılıq, tikinti materialları, turizm, tekstil, sənaye, logistika kimi məsələlər ətrafında müzakirələr gedib. Azərbaycan, Türkiyə və Özbəkistan arasında iqtisadi əməkdaşlığın gücləndirilməsi, biznes tərəfdaşlığının effektivliyinin artırılması, ticarət əlaqələrinin genişləndirilməsi, ölkələrimiz və region üçün əhəmiyyətli investisiya layihələrinin təşviqi imkanları tədbirin əsas mövzusu olub. Qeyd olunub ki, hər üç ölkə arasında əlaqələr regiondakı geosiyasi proseslər fonunda inkişaf edir.

Şübhəsiz, bu əməkdaşlığın güclənməsində Türk Dövlətləri Təşkilatının (TDT) böyük rolu var. TDT-də təmsil olunan ölkələr arasında ötən müddətdə həm çoxtərəfli, həm də ikitərəfli formatlarda əməkdaşlıq əlaqələri qurulub. İndiyədək vaxtaşırı iqtisadi münasibətlər çərçivəsində bu birliyə üzv dövlətlərin müvafiq qurumlarının yüksəksəviyyəli rəsmiləri arasında çoxsaylı görüşlər keçirilib, bir neçə biznes-forum gerçəkləşdirilib. Həmin tədbirlərdə quruma üzv dövlətlərin iqtisadi imkanları, əməkdaşlıq sahələri təqdim olunub. O cümlədən investisiya mühitinin yaxşılaşdırılması, iqtisadiyyatın şaxələndirilməsi və sahibkarlıq üzrə işçi qruplarının yaradılması haqqında qəbul edilən qərarlar müsbət nəticə ilə diqqət çəkib.

Bu deyilənlər adıçəkilən forumda da gündəliyə gəlib. Bildirilib ki, TDT-nin ötənilki 11-ci Zirvə görüşü çərçivəsində üzv dövlətlər arasında imzalanmış Rəqəmsal İqtisadiyyat üzrə Tərəfdaşlıq Sazişi, dövlət başçıları tərəfindən imzalanmış Qarabağ Bəyannaməsi, həmçinin Türk İnvestisiya Fondu strateji və iqtisadi əlaqələrin gücləndirilməsində mühüm rol oynayır.

Ayrıca Azərbaycan-Türkiyə əlaqələrinə gəlincə qeyd edə bilərik ki, ölkələrimiz arasında iqtisadi əlaqələr günbəgün genişlənir. İngilislər deyirlər ki, dövlətin əbədi dostu olmur, əbədi marağı olur. Amma bir sıra enerji və nəqliyyat layihələrinə evsahibliyi edən Azərbaycan və Türkiyə qardaşlığı bu deyimi təkzib edir. Çünki əlaqələr ortaq milli maraqlarla yanaşı, həm də yüksək mənəvi dəyərlərə söykənir. Məhz bu səbəb imkan verib ki, qardaş dövlətlər arasındakı iqtisadi birliyin sarsılmazlığı Türkiyə-Azərbaycan-Özbəkistan biznes-forumunda bir daha səsləndirilsin. Tədbirdə bildirilib ki, indiyədək Türkiyə Azərbaycan iqtisadiyyatına böyük həcmdə sərmayə qoyub və ölkələrimiz arasında investisiya üzrə işbirliyi genişlənir. Eləcə də Azərbaycan sərmayəçiləri ölkələrimiz üçün vahid ekosistemin iştirakçıları kimi çıxış edirlər. O da diqqətə çatdırılıb ki, Azərbaycan tərəfindən Türkiyə iqtisadiyyatına 20 milyard dollaradək investisiya yatırılıb. Türkiyə şirkətləri işğaldan azad edilmiş Azərbaycan ərazilərinin yenidən qurulmasında daha fəal iştiraka, təqdim edilən güzəştlərdən yararlanmağa dəvət edilib.

Biznes-forumda Azərbaycanın Özbəkistanla ticarət dövriyyəsinin getdikcə artdığı vurğulanıb. Sirr deyil ki, həm Azərbaycan, həm də Özbəkistan iqtisadi baxımdan bütün türk dünyasının qüdrətli dövlətləri hesab olunurlar. Nəqliyyat sektoru iki qardaş dövlət, bütövlükdə türkdilli ölkələr arasında əlaqələrin möhkəmlənməsinə önəmli töhfələr vermək perspektivinə malikdir. Mühüm nəqliyyat marşrutlarının üzərində yerləşən ölkələrimiz bu sahədə də fəal əməkdaşlıq edirlər. Prezident İlham Əliyevin uzaqgörən siyasətinin nəticəsi olaraq Azərbaycanda gərəkli bir sıra nəqliyyat-logistika infrastrukturu yaradılıb və ölkəmiz beynəlxalq nəqliyyat şəbəkələrinə inteqrasiya olunub.

Tədbirdə digər məsələlər də diqqətə çatdırılıb. Qeyd olunub ki, Orta dəhliz üzrə nəqliyyat-tranzit daşımalarında artım var. 500 milyon dollarlıq kapitala malik Azərbaycan-Özbəkistan İnvestisiya Şirkətinin xətti ilə 8 layihə üzrə işlər görülür. Özbəkistan Prezidentinin Füzuli rayonunda özbək xalqı adından Qarabağa hədiyyə olaraq inşa etdirdiyi Mirzə Uluqbəy adına məktəbin fəaliyyətə başlaması, Xankəndi şəhərində tikiş fabrikinin açılışı ölkələrimiz və xalqlarımız arasında əsl qardaşlıq və əməkdaşlıq nümunəsidir.

Forum çərçivəsində Azərbaycan, Türkiyə və Özbəkistanın xarici işlər, iqtisadiyyat, ticarət və nəqliyyat nazirlərinin üçtərəfli görüşünün yekunlarına dair Ankara Bəyannaməsi qəbul olunub. Bəyannamədə qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlərlə bağlı əməkdaşlığın inkişaf etdirilməsi, eləcə də suverenlik və ərazi bütövlüyü əleyhinə atılan addımlara qarşı birgə fəaliyyətə dəstək əks olunub. Həmçinin ətraf mühit və iqlim dəyişmələri üzrə mübarizə istiqamətləri TDT çərçivəsində əməkdaşlığın, xüsusən Orta dəhlizin səmərəliliyi və rəqabətədavamlılığının artırılmasının vacibliyi ifadə edilib.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*